**Azərbaycan Respublikası Prezidentinin 27.12.2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda həyata keçirilməsi Vergilər Nazirliyinə həvalə olunmuş tədbirlərin icrası üzrə 2013-cü il ərzində görülmüş işlər barədə**

# MƏLUMAT

## *1. Sahibkarların və istehlakçıların hüquqlarının möhkəmləndirilməsi*

Vergi orqanlarının sahibkarlıq subyektlərinin fəaliyyətinə qeyri-qanuni müdaxilənin qarşısının alınması məqsədilə 2013-cü ildə Vergilər Nazirliyi tərəfindən zəruri tədbirlər müəyyənləşdirilib həyata keçirilmişdir. Bu məqsədlə nazirliyin rəsmi internet saytında (taxes.gov.az) "Sahibkarlıq fəaliyyətinizdə vergi qanunvericiliyinin tətbiqi ilə əlaqədar üzləşdiyiniz hüquq pozuntuları barədə necə məlumat verməli?" rubrikalı linklərə qeyd edilən dövr ərzində daxil olmuş 16 müraciət müvafiq qaydada araşdırılmış və aidiyyəti üzrə icraata verilmişdir.

Hesabat ilində vergi ödəyicilərindən daxil olmuş təkrar şikayətlər üzrə Vergilər Nazirliyinin Vergi Apellyasiya Şurasında Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun, "Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurası haqqında Əsasnamə"nin tələblərinə uyğun baxılmış və nəticəsinə dair müvafiq qərarlar çıxarılmışdır. Hesabat ilində Şuranın icraatında vergi ödəyicilərindən (və ya vətəndaşlardan) ümumilikdə 13 müraciət daxil olmuşdur ki, bunlardan 4-ü təmin edilmiş, 4-ü təmin edilməmiş, 1-i qismən təmin edilmiş, 1-i üzrə məhkəmə qərarı olduğundan işə mahiyyəti üzrə baxılmamış, 1-i baxılması üçün aidiyyəti üzrə göndərilmiş, 2 təkrar şikayət isə icraatdadır.

Videoqəbullarının təkmilləşdirilməsi istiqamətində 10.06.2013-cü il tarixdən "Polikom" proqramı vasitəsilə qəbulların video konfrans şəklində keçirilməsinə başlanılmış və ötən müddət ərzində vətəndaşlarla 4 videoqəbul təşkil edilmişdir.

Vergi orqanları tərəfindən vergi ödəyicilərində səyyar və operativ vergi nəzarəti tədbirləri Azərbaycan Respublikası Prezidentinin 15.02.2011-ci il tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilir. Bu qayda ilə hesabat ilində başa çatdırılan 8834 səyyar vergi yoxlaması müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla təyin edilmişdir. Yoxlamalar zamanı 8798 vergi ödəyicisində vergilərin hesablanması və ödənməsində qanun pozuntuları aşkar edilmiş, 415,4 milyon manat əlavə vəsait hesablanmış və 233,8 milyon manat maliyyə sanksiyası (faizlə birlikdə) tətbiq edilmişdir.

Sahibkarların fəaliyyəti və hüquqlarının müdafiəsi zamanı yaranan problemlərin öyrənilməsi məqsədilə hesabat ilində vergi orqanları tərəfindən 986 görüş keçirilmiş, 12306 vergi ödəyicisinə səyyar məlumatlandırma xidməti göstərilmişdir. Vergi əməkdaşlarının hərəkət və ya hərəkətsizliyi barədə 195 Çağrı Mərkəzinə daxil olmuş 678 müraciət araşdırma məqsədilə icarata götürülmüşdür. Vergilər Nazirliyinin rəsmi internet səhifəsindəki (taxes.gov.az) "Vergilər naziri ilə əlaqə" bölməsinə hesabat dövründə 536 müraciət daxil olmuşdur.

Hesabat ilində Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən (taxes.gov.az) istifadələrin sayı 3179386, "Sual-cavab" rubrikasına olan müraciətlərin sayı isə 2010 olmuşdur. Hesabat ilində saytın "Sual-cavab" rubrikasına işə qəbulla bağlı daxil olan 110 müraciət cavablandırılmışdır. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (taxes.gov.az) olan "Qanunvericilik" bölməsində olan normativ-hüquqi sənədlərin yenilənməsi işləri mütəmadi olaraq davam etdirilir.

Bununla yanaşı, "Facebook" və "Twitter" sosial şəbəkələrində Vergilər Nazirliyinin rəsmi səhifələrində, "Youtube" video hostinq serverində və video.az saytında vergi orqanlarının fəaliyyəti barədə mütəmadi olaraq ictimaiyyətin məlumatlandırılması həyata keçirilmişdir. Vergi qanunvericiliyi və inzibatçılığı barədə vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə nazirliyin "Facebook" sosial şəbəkəsindəki səhifəsində "Onlayn müfəttiş" adlı layihə həyata keçirilir.

“Vergi Dostları” layihəsinə qoşulmuş müəllimlərin əlaqələndirilməsi, onların gördükləri işlər barədə məlumat vermələri məqsədilə “Facebook” sosial şəbəkəsində “Vergi Dostları” qrupu yaradılmışdır.

Eyni zamanda vergi ödəyiciləri və “Vergi Dostları” ilə keçirilən görüşlərdə vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi orqanı əməkdaşlarının hərəkətinə (hərəkətsizliyinə) dair müraciət imkanları barədə ətraflı məlumat verilmişdir.

Sahibkarlığın təşviqinə yönəlmiş vergi siyasətinin həyata keçirilməsi istiqamətində vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 14 adda kiçik həcmli bukletlər, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi və 195 Çağrı Mərkəzi barədə kitabçalar, o cümlədən nağdsız ödənişlərin üstünlüklərini, ödəniş kartları və POS-terminallardan istifadə qaydalarını özündə əks etdirən bukletlər, NKA və ciddi hesabat blanklarının tətbiqi xüsusiyyətlərini əks etdirən kitabçalar hazırlanmış və 146800 sayda (133900 azərbaycan dilində, 12900 ingilis dilində) nəşr etdirilərək vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür. Eyni zamanda “Ünvanlı vergi xidmətləri” adlı jurnal nəşr olunaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Vergi orqanlarının fəaliyyətinin işıqlandırılması və geniş ictimaiyyətə çatdırılması məqsədilə hesabat ilində “Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər” mövzusunda II Vergi Forumu keçirilmişdir. Vergi ödəyiciləri ilə əməkdaşlığın mühüm formatlarından biri olan bu Forumda dövlət orqanlarının, Milli Məclisin, Avropa Birliyinin, Dünya Bankının, Iqtisadi Əməkdaşlıq və İnkiaf Təşkilatının, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının, Bakıda akkreditə olunmuş səfirliklərin, ABŞ, Belçika və Türkiyədən gəlmiş tanınmış iqtisadçıların, bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin və kütləvi informasiya vasitələrinin nümayəndələri və iş adamları iştirak etmişlər. Korrupsiya ilə mübarizə və şəffaflığın artırılması məsələləri Forumun əsas müzakirə mövzuları sırasında olmuşdur. Tədbir KİV-də geniş işıqlandırılmışdır.

Hesabat ilində Vergilər Nazirliyinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyi (ASAN Xidmət) ilə birgə “ASAN imza-mobil hökumətin açarıdır”

mövzusunda konfrans keçirilmişdir. Konfrans Azərbaycan Respublikasının Prezidentinin 05.09.2012-ci il tarixli 706 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli fəaliyyət planı"na uyğun olaraq nazirlik tərəfindən həyata keçirilən yeni layihənin – Vergilər Nazirliyinin elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin təqdimatına həsr olunmuşdur. Konfransın əsas məqsədi vergi sistemində ASAN imzaya sahib olmağın prosedur qaydaları, onun üstünlükləri və gələcəkdə vətəndaşların elektron hökumətin xidmətlərindən istifadəsini müzakirə etmək və ictimaiyyətin diqqətinə çatdırmaq olmuşdur. Tədbir KİV-də geniş işıqlandırılmışdır.

Milli Fəaliyyət Planına uyğun olaraq hesabat ilində Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentində və Vergi ödəyicilərinə Xidmət Mərkəzində kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələri üçün "Açıq qapı" günü keçirilmişdir. Tədbir KİV nümayəndələrini vergi xidmətinin əsas fəaliyyət istiqamətlərindən olan vergi auditinin təkmilləşdirilməsi və səyyar vergi yoxlamalarının səmərəliliyinin artırılması, vergi ödəyicilərinə xidmət sahəsində aparılan işlər, bu xidmətlərin səviyyəsinin artırılması üçün görülən tədbirlərlə tanış etmək məqsədi daşımış, vergi orqanlarının şəffaf fəaliyyəti barədə media nümayəndələrinə ətraflı məlumat verilmişdir.

Bundan başqa Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) Vergilər Nazirliyi ilə birgə təşkil etdiyi "Vergi partnyorluğu" mövzusunda konfrans keçirilmişdir. Tədbirin əsas məqsədi vergi ödəyiciləri ilə vergi orqanı arasında partnyorluğun yeni mərhələyə qaldırılması və cəmiyyətdə mövcud olduğundan daha yüksək vergi mədəniyyətinə olan ehtiyacı müzakirə etmək olmuşdur. Tədbirin KİV-də geniş işıqlandırılması təmin edilmişdir.

2013-cü ilin dekabr ayında Tailandda Beynəlxalq Antikorrupsiya Akademiyasının təsis olunması haqqında Müqaviləyə tərəf dövlətlərin 2-ci Assambleyası keçirilmişdir. Assmbleyada Azərbaycan nümayəndə heyəti ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatlar, əldə edilmiş uğurlar və inkişaf etməkdə olan beynəlxalq əməkdaşlıq istiqamətləri barədə məlumat vermişdir. Tədbirdə Azərbaycan

Assambleyanın rəhbər orqanı olan Büroya üzv seçilmişdir. Ölkəmiz üçün mühüm nailiyyətlərdən sayıla biləcək bu hadisə KİV-də geniş işıqlandırılmışdır.

Vergi orqanlarının fəaliyyətinin işıqlandırılması və geniş ictimaiyyətə çatdırılması məqsədilə KİV-lə yüksək səviyyəli əməkdaşlıq qurulmuş, bu çərçivədə "Vergilər" qəzetinin təşkilatçılığı ilə hesabat ilində "Azərbaycanda əmək bazarı: qeyri-leqal məşğulluqla mübarizə", "Nağdsız ödənişlərin səviyyəsi şəffaflığın və hesabatlılığın mühüm şərtidir", "Heydər Əliyev və Azərbaycanın milli inkişaf modeli", "Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli" və "Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü» mövzusunda dəyirmi masalar keçirilmişdir.

Bununla yanaşı, hesabat ilində KİV üçün 116 press-reliz verilmiş, vergi orqanlarının rəhbər vəzifəli şəxslərinin KİV üçün 51 müsahibəsi təşkil olunmuşdur. Mərkəzi televiziya kanallarında vergilərə dair 424 süjet efirə verilmiş, internet saytlarında 2860, mərkəzi mətbuatda 2642 material dərc edilmişdir. Bundan başqa, qeyd olunan dövrdə regional TV-lərdə və yerli mətbuat orqanlarında ümumilikdə 315 süjet və material efirə verilmiş və ya dərc olunmuşdur.

KİV nümayəndələri Vergilər Nazirliyinin keçirdiyi müxtəlif tədbirlərə, o cümlədən "Kompyuter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi" Tvinninq layihəsinin başa çatdırılmasına həsr olunmuş təqdimat mərasiminə, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının Baş Əlaqələndirici Şəxslərinin 19-cu Forumuna, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının və Vergilər Nazirliyinin birgə təşkilatçılığı ilə "Çoxmilli müəssisələrin auditi" mövzusunda seminarın işinə cəlb edilmiş, tədbirlərin yüksək səviyyədə işıqlandırılması təmin edilmişdir. Vergilər Nazirliyinin keçirdiyi "Vergi dostları" şəbəkəsinin yaradılması, xidmət mərkəzlərinin açılışları, referat müsabiqələri, olimpiada və şahmat yarışları da KİV-də geniş işıqlandırılmışdır.

Görülən işlərin nəticəsi olaraq Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurasının keçirdiyi sorğuların nəticələrinə əsasən, hesabat ilində Vergilər Nazirliyi "Azərbaycan mediası ilə səmərəli əməkdaşlığın qurulmasındakı xidmətlərinə görə" ali media mükafatina layiq görülmüşdür.

Eyni zamanda, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Beyin mərkəzlərinin qərar qəbulu arenasında rolunun gücləndirilməsi vasitəsi ilə idarəetmənin effektivliyinin yüksəldilməsi" layihəsi çərçivəsində əməkdaşlığa açıq olan dövlət orqanının müəyyənləşdirilməsi məqsədilə İqtisadi Tədqiqatlar Mərkəzi tərəfindən KİV və QHT-lər arasında keçirilmiş sorğunun nəticələrinə görə, Vergilər Nazirliyi 1-ci yerə çıxaraq əməkdaşlığa ən açıq olan dövlət qurumu seçilmiş və tədbir KİV-də geniş işıqlandırılmışdır.

## *2. Korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması, milli mexanizmlərin inkişafı, habelə bu sahədə institusional islahatların davam etdirilməsi*

Vergilər Nazirliyinin Tədris Mərkəzində korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması, məlumat azadlığı məsələləri mövzularında terninqlərinin keçirilməsi məqsədilə 2013-cü ilin "Kombinə edilmiş təhsil sistemi tətbiq edilməklə ilkin hazırlıq kurslarının təşkili və keçirilməsi barədə" tədris-mövzu planına "Vergi ödəyiciləri ilə qarşılıqlı münasibətlərdə işgüzar ünsiyyət etikası və vergi işçisinin etik davranış Kodeksi" və "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu və korrupsiya cinayətləri üzrə cinayət tədqiqi məsələləri" mövzuları daxil edilmişdir. Bununla əlaqədar 2013-cü ilin 27 iyun tarixində nazirliyin əməkdaşları tərəfindən Tədris Mərkəzində vergi orqanlarının 26 nəfər vəzifəli şəxsi üçün "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu və bu sahədə vergi orqanları qarşısında duran vəzifələr", "Vergi işçisinin etik davranış Kodeksi" və "Vergi işçisinin etik davranış Kodeksində ayrı-ayrı halların təhlili" mövzularında təlimlər keçirilmişdir.

Vergilər Nazirliyinin əməkdaşları xarici ölkələrin təcrübələrinin öyrənilməsi məqsədilə bir sıra beynəlxalq təşkilatların təşkil etdikləri tədbirlərdə də iştirak etmişdirlər.

Avropadaxili Vergi Administrasiyaları Təşkilatına üzv ölkələrin təcrübələrinin öyrənilməsi məqsədilə Beynəlxalq Anti-Korrupsiya Akademiyası tərəfindən 2013-cü

ilin 10-11 iyul tarixlərində keçirilən “Korrupsiyaya qarşı mübarizə üzrə preventiv və maarifləndirici tədbirlər” mövzusunda seminarlarda nazirliyin 2 nəfər əməkdaşı iştirak etmişdir. Tədbirlərdə 28 ölkənin nümayəndələri tərəfindən korrupsiyaya qarşı apardıqları mübarizəyə dair təcrübələri barədə müzakirələr aparılmış, həmin sahəyə qarşı mübarizədə nailiyyətlər əldə etmiş ölkələrin təcrübələri, bu istiqamətdə elektron-informasiya texnologiyalarından istifadənin labüdlüyü, nağdsız pul əməliyyatlarının daha geniş tətbiqi, vətəndaş-məmur təmasının minimuma endirilməsi üsulları müzakirə olunmuşdur.

Bununla yanaşı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 2013-cü ilin 16-20 sentyabr tarixlərində keçirilən “Vergi və cinayət” mövzusunda seminarında, Avropa İttifaqının TAİEX yardım aləti çərçivəsində Gürcüstanın Tbilisi şəhərində 19-20 sentyabr tarixlərində keçirilən “Maliyyə cinayətlərinin istintaqı” mövzusunda seminarda nazirliyin 2 nəfər əməkdaşı iştirak etmişdir. Türkiyə Respublikasının İstanbul şəhərində 2013-cü ilin 7-8 noyabr tarixlərində keçirilən “Vergi və cinayət” mövzusunda üçüncü illik konfransda isə Vergilər Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir.

Vergilər nazirinin müavini Sahib Ələkbərovun rəhbərlik etdiyi Azərbaycan Respublikası Hökumətinin nümayəndə heyəti Tailand Krallığının Banqkok şəhərində 2013-cü ilin 9-11 dekabr tarixlərində keçirilən Beynəlxalq Anti-Korrupsiya Akademiyasının beynəlxalq təşkilat olaraq təsis edilməsinə dair Müqaviləyə tərəf dövlətlərin 2-ci Baş Assambleyasında iştirak etmişdir. Ölkəmizdə korrupsiyanın qarşısının alınması və şəffaflığın təmin edilməsi istiqamətində görülən işlər və əldə edilən uğurlar barədə tədbir iştirakçılarına ətraflı məlumat verilmiş və yekunda Azərbaycan Respublikası Assambleyanın Bürosuna üzv seçilmişdir.

Vergilər Nazirliyi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaşları maarifləndirmək məqsədilə buklet hazırlanmış və 2000 sayda nəşr etdirilmişdir. Bukletdə korrupsiya ilə əlaqədar əsas anlayışlar, korrupsiyaya qarşı mübarizəni həyata keçirən orqanlar, Vergilər Nazirliyində korrupsiyaya qarşı mübarizəni həyata keçirən struktur, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılmasının

xüsusiyyətləri barədə məlumat verilmiş, korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat vermə imkanları əksini tapmışdır.

Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası ilə birlikdə keçirilmiş müsabiqənin test imtahanında və müsahibədə müvəffəqiyyət qazanaraq nazirliyin kadr ehtiyatlarına daxil edilmiş 290 nəfər namizəddən 96 nəfəri hesabat ilində işlə təmin edilmiş, 9 nəfəri isə təklif olunan vəzifə ilə razılaşmadığı üçün kadr ehtiyatından çıxarılmışdır. Qeyd olunan bütün proseslər müvafiq qanunvericiliyə uyğun və şəffaflıq əsasında həyata keçirilmiş, işə qəbulun şərtləri və nəticələri haqqında vaxtında ictimaiyyətə məlumat verilmişdir.

### *3. Elektron xidmətlərin həyata keçirilməsinin təmin edilməsi*

Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli 429 nömrəli “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Fərmanının icrası məqsədilə Vergilər Nazirliyinin 16.06.2011-ci il tarixli Kollegiya qərarı ilə Tədbirlər Planı təsdiq edilmişdir. Bu Fərmanla əlaqədar təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07.06.2011-ci il tarixli 147s nömrəli Sərəncamının 3-cü bəndinin icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən görülmüş işlər barədə aylıq hesabatlar Nazirlər Kabinetinə mütəmadi olaraq təqdim edilir.

Azərbaycan Respublikası Prezidentinin 06.07.2012-ci il tarixli 676 nömrəli Fərmanı ilə edilmiş dəyişikliə əsasən “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Fərmanın 2.1-ci hissəsində mərkəzi icra hakimiyyəti orqanlarına göstərdikləri hər bir elektron xidmət üzrə ayrıca inzibati reqlamentin müəyyən edilməsi tapşırılmışdır.

Bununla yanaşı, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2011-ci il tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Nazirlər Kabinetinin 17.10.2012-ci il tarixli 235 nömrəli Qərarı ilə “Elektron xidmət növlərinin

Siyahısı" yeni redaksiyada təsdiq edilərək Vergilər Nazirliyinə 57 ədəd elektron xidmət növünün göstərilməsi həvalə edilmişdir.

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 21.12.2012-ci il 509-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 29.12.2012-ci il tarixli 802 nömrəli Fərmanının 3.2-ci bəndi ilə ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi məqsədi ilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı təkliflərin hazırlaması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi istiqamətində Vergilər Nazirliyinə müvafiq tapşırıqlar verilmişdir. Qeyd edilən tapşırıqların icrası məqsədi ilə Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin stimullaşdırılması və nağd ödənişlərin məhdudlaşdırılması ilə bağlı bir sıra normativ hüquqi akt layihələri hazırlanaraq 29.03.2013-cü il tarixli 1317020002594000 nömrəli məktubla Azərbaycan Respublikasının Prezident Administrasiyasına təqdim edilmişdir. Prezident Administrasiyası bu layihələri müvafiq dövlət orqanlarının rəy və təkliflərinin öyrənilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərmişdir.

Müvafiq dövlət orqanlarının rəy və təklifləri nəzərə alınmaqla yeni layihəsinin təqdim edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.08.2013-cü il tarixli 14/10-99 nömrəli məktubunun icrası ilə əlaqədar Vergilər Nazirliyində hazırlanmış nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı yeni hüquqi akt layihələri baxılması üçün 04.11.2013-cü il tarixli 1317020009662100 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Hesabat dövründə banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın genişləndirilməsi işləri davam etdirilmişdir. İl ərzində "Naxçıvanbank", "Gəncəbank", "Günaybank" ASC-ləri və "Pakistan Milli Bankının Bakı filialı ilə vergi orqanları arasında hesabların açılması üçün şəhadətnamə-dublikatların və hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün sərəncamların elektron mübadiləsinə başlanılmış və bununla

da, respublikamızda fəaliyyət göstərən kommersiya banklarından 41-nin elektron mübadiləyə qoşulması təmin olunmuşdur.

Rüsumların, vergilərin, inzibati cərimələrin və digər ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi ilə bağlı işlər davam etdirilmişdir. Belə ki, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Mərkəzi Bankın əməkdaşları ilə birgə hesabat dövründə dövlət rüsumu toplayan qurumlarından biri olan Ədliyyə Nazirliyinin "Hökümət Ödəniş Portalı"na inteqrasiya olunması istiqamətində işlər həyata keçirilmişdir. İlkin mərhələdə Ədliyyə Nazirliyi tərəfindən toplanan rüsumların büdcə təsnifatı kodları və rüsum yığan təşkilatlarının xəzinə rekvizitləri barədə müvafiq siyahılar müəyyənləşdirilmiş, keçirilmiş birgə görüşlərdə Ədliyyə Nazirliyinin informasiya sisteminin "Hökümət Ödəniş Portalı"na qoşulması ilə bağlı bütün texniki və digər məsələlər müzakirə edilmişdir.

Bu istiqamətdə görülmüş işlərin nəticəsidir ki, rüsum, vergi, inzibati cərimə və digər ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi sayəsində vergi ödəyiciləri tərəfindən 2012-ci il ərzində 335 mindən artıq sayda 85,6 milyon manat məbləğində ödəniş edilmişdirsə, 2013-cü ildə bu ödənişlərin sayı 2,4 dəfə artaraq 794 min vahid, ödənişlərin məbləği isə 2,0 dəfə artaraq 167,7 milyon manata çatmışdır.

Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin çeşidinin artırılması və təkmilləşdirilməsi istiqamətində hesabat dövründə elektron qaydada təqdim edilmiş ərizəyə əsasən 27410 fərdi sahibkar qeydiyyata alınmış və onlara VÖEN verilmişdir. İl ərzində elektron üsulla uçota alınmış fərdi sahibkarların ümumi qeydiyyatda xüsusi çəkisi 43 faiz olmuşdur;

Ölkədə tətbiq edilən kommersiya hüquqi şəxslərin e-qeydiyyat sistemi vasitəsilə 4158 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alınmışdır. Hesabat dövründə 3300 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət elektron qaydada təqdim etdiyi ərizəyə əsasən dövlət qeydiyyatına alınmışdır. Həmin dövrdə kommersiya hüquqi şəxslər üzrə elektron üsulla aparılmış qeydiyyatın xüsusi çəkisi 45,2% olmuşdur.

Hesabat dövründə vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin çeşidi və həcmi genişləndirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.11.2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmətlərin siyahısı"na daxil edilmiş 5 elektron  xidmət, o cümlədən "Hüquqi şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi", "Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi", "Hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarının onlayn dəyişdirilməsi', "Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) uçot məlumatlarının onlayn dəyişdirilməsi" və "Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatdan çıxarılması" xidmətləri üzrə müvafiq proqram təminatları hazırlanaraq istifadəyə verilmişdir. Həmin xidmətlər üzrə hazırlanmış inzibati reqlamentlər 22.10.2013-cü il tarixdə 15201310085500 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindəki Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

Eyni zamanda "Fiziki şəxslərin vergi uçotunda olub-olmaması barədə müraciətlərinin elektron qəbul edilməsi və cavablandırılması", "Vergi ödəyicilərinin təsərrüfat subyektlərinin (obyektinin) onlayn qeydiyyatı", "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı" və "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması" xidmətləri üzrə proqram təminatı hazırlanaraq test edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləridirilməsi ilə bağlı tədbirlər barədə" 05.02.2013-cü il tarixli 813 nömrəli Fərmanmın 5.1-ci hissəsində mərkəzi icra hakimiyyəti orqanlarına elektron xidmətlərin təşkilini sürətləndirmək və onların "Elektron hökumət" portalına qoşulması üçün 01.12.2013-cü il tarixindən "ASAN İmza" "Elektron hökumət" (e-gov.az) portalına inteqrasiya edilmişdir. Hazırda Vergilər Nazirliyi tərəfindən göstərilən 56 növ elektron xidmətlərin e-gov.az portalına inteqrasiya olunmuş ASAN imza və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən verilmiş elektron imzadan istifadə vasitəsi test mərhələsindədir.

Vergilər Nazirliyi tərəfindən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, “ASAN imza Sim-kartı” və “Rəqəmsal İD kartı” üzrə dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı hesabat dövründən etibarən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (bundan sonra – ASXM) fəaliyyətə başlamışdır. Vergi ödəyiciləri mobil telefon vasitəsilə imza etməklə öz sənədlərini vergi orqanlarına göndərmək imkanı əldə etmişlər. Vətəndaşların mobil imza vasitəsilə digər dövlət qurumlarının da xidmətlərindən istifadə edə bilmələri üçün müvafiq tədbirlər görülür.

Bunlarla yanaşı “Onlayn kargüzarlıq” sistemində onlayn formada tərtib edilən ərizələr sırasına yeni ərizə formaları əlavə edilməklə onların sayı 29-a çatdırılmışdır.